


## Yaşayaq

Vaxtı öldürməyin ən qısa yolu
yatmaqdı.
Adamı insan eləməyin ən qısa yolu
yatanı oyatmaqdı.
Tükənməyən ən qısa yolu
arzuya çatmaqdı.
Hamını tanıyıb,
özünü tanımayan
hər sözə qulaq asandı...
Xülasə, yaşamaq asandır,
Elə də olar, belə də...
Ölüm birdi!
O da bir sirdi
açılmaz və qaçılmaz.
Adam qıtlığı yoxdur dünyada,
Maşallah, hara baxırsan insandı-
Çalışanlar,
danışanlar,
deyinənlər.
Deyinməyin baxtınızdan,
vaxtınızdan,
taxtınızdan.
Deyinməyin!
Yaşadığınız ömrü
Qara paltar kimi geyinməyin!
Qardaşım, bacım, gözünü geniş aç!
İşığa doğru qaç!
Yaşadığın zamana, dünyaya yaxşı bax!
Biz doğma bir ailəyik,
Gəlin əl-ələ verək,
İnsan kimi yaşayaq.

*17.III.2015*

## Alim oxuyurdu

*Xalq artisti Alim Qasımovu dinləndə*

Heç bilmirəm kainatın harasında,
Bardaş qurub səyyarələr arasında
İnsan səsinin alimi oxuyur,
Mənə yox, dünyaya, aləmə oxuyur.
Əllərini uzadıb bizi Yaradana
Səsi də, özü də yana-yana oxuyur.
İnsan sevgisini, insan dərdini oxuyur.
Ruhu, əxlaqı, dili, dini oxuyur:
Rəbbim, qana batıb zamanın əli,
Zaman insan sümükləri üstündə gedir irəli.

Bizdən yaxşı bilirsən özün də,
İnsan sevgisi tükənib Yer üzündə.
Nifrət silah doğur,
Silahlar günah doğur.
Allahım, bizi kainatda Yersiz qoyma,
Bizi sevgisiz, arzusuz, şeirsiz qoyma.
Elə ki, insan ürəyi eşq ilə oxuyur,
O səhər bütün kainat bənövşə qoxuyur.
Allahım, sevgini qaytar insanlara
Qovuşsun dost-dosta, yar-yara.
Alim oxuyurdu...
Səsinə qoşulub
Mən də kainata getdim.
Alim oxuyurdu;
Mən də öz eşitdiklərimi qeyd etdim.

*22.III.2015*



*Alim Qasımov*

*(Rəsm Arif Həsənovundur)*